

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 60 (8653) CÜMƏ AXŞAMI, 18 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İLHAM ƏLİYEV Novruz bayramını Şuşada qarşıladı



- Mən bu şəkilləri arxivdən tapmışdım. Vaqif poeziya günləri keçirilir, 1982-ci ilin yay ayında. Məqbərənin önündə Ulu Öndər Heydər Əliyev. İnsanlar da bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, burada nə olub və bu şəkil tapıldı.

- Ulu Öndərin o vaxt Şuşaya səfəri ilə əlaqədar daha bir neçə şəkil tapmışam arxivdən, mən də buradayam. Bu da Cıdır düzündə. Bunu bir dəfə göstərmişdim, Natəvan bulağının önündə. Bir şəkil də var, onu da göstərməliyəm. Burada Vaqifin büstü də var idi. Keçən dəfə Şuşada olarkən mən göstərdim ki, ermənilər büstü söküb dükan tikiblər. Bax, budur. Vaqifin büstü, Ulu Öndər də baxır. Bu büstü də bərpa edəcəyik.

- Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam.

- Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz.

- Biz artıq Şuşadan ayrılırıq, ancaq yenə də ayrılmaq istəmirik. Şuşa insanı özünə o qədər cəlb edir ki, buraya gələnlər qayıtmaq, getmək istəmirlər.

- Şuşaya "hələlik" deyirik. Şuşanın girişində Azərbaycan bayrağı dalğalanır və bundan sonra əbədi dalğalanacaqdır. Aşağıda da Laçın dəhlizidir. Hava da yenə bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır. Keçən dəfə də yanvar ayında Şuşaya gələndə, Şuşaya yaxınlaşanda hava açıldı, Günəş bizi salamladı.

- Hansı tərəfə baxsan gözəllik, yaşıllıq. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaq.

# İLHAM ƏLİYEV Novruz









**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərində olublar.**

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi:

- Dünən Azıxdan çıxdıq Şuşaya gəldik. Yollar hələ ki, çox bərbad vəziyyətdədir, çünki yol yoxdur, Zəfər yolu ilə gəlmişdik. Hələlik ancaq torpaq yoludur, çünki havalar soyuq keçir, asfalt döşəmək mümkün deyil. Palçıq idi və güclü duman var idi. Ona görə Azıxdan Şuşaya 1 saat 45 dəqiqəyə gəldik. Gecə Şuşada qaldıq. Səhər saat 9-da çıxmışıq və gedirik, bir neçə tədbir var. Hava açıqdır, ancaq yenə də buludlar şəhərin üstündədir.

Keçən dəfə yanvar ayında gəlmişdik. Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini Şuşaya qaytardıq. Bu gün bir daha Şuşaya gəlmək insana böyük zövq verir. Sol tərəfdə Şuşanın qarlı, dumanlı dağlarıdır.

Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Bu gün bərpa işlərinə start veriləcək.

Məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlər verildi. İlkin araşdırmalar başlanıldı və yaxın gələcəkdə layihə təqdim ediləcək.

Şuşa bütün mövsümlərdə gözəldir.

Bulaqları da bərpa edəcəyik. Otuz il ərzində ermənilər bütün bulaqlarımızı qurudublar. Görün, şəhər nə gündədir, düşmən Şuşanı nə günə salıb.

Vaqifin məqbərəsinə yaxınlaşırıq. Artıq işlərə start verilib. Layihəyə baxmışam. Bax, burada, fotoşəkillər də var. Ulu Öndər Heydər Əliyev burada olarkən həm açılışda, həm də Vaqif poeziya günündə iştirak edib. Tarixi bərpa edirik. Bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəldilər.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və birinci xanıma bu kompleksin bərpası layihəsi ilə bağlı məlumat verdi. Bu layihə Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcək. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar.

**Prezident İlham ƏLİYEV:**

- Mən bu şəkilləri arxivdən tapmışdım. Vaqif poeziya günləri keçirilir, 1982-ci ilin yay ayında. Məqbərənin önündə Ulu Öndər Heydər Əliyev. İnsanlar da bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, burada nə olub və bu şəkil tapıldı. Görürsünüz, Vaqifin təsviri bax, bu divarda olmuşdur. Mənfur düşmən bunu da sökdü, bu mərməri də sökdü. Bu da qəbirin üstündə sinə daşı idi. Vandal erməni bunu da söküb. Bunu bərpa edəcəyik. Ulu Öndərin o vaxt Şuşaya səfəri ilə əlaqədar daha bir neçə şəkil tapmışam arxivdən, mən də buradayam. Bu da Cıdır düzündə. Bunu bir dəfə göstərmişdim, Natəvan bulağının önündə. Bir şəkil də var, onu da göstərməliyəm.









*Ardı 3-cü səh.*

# bayramını Şuşada qarşıladı





*Əvvəli 2-ci səh.*

Burada Vaqifin büstü də var idi. Keçən dəfə Şuşada olarkən mən göstərdim ki, ermənilər büstü söküb dükan tikiblər. Bax, budur. Vaqifin büstü, Ulu Öndər də baxır. Bu büstü də bərpa edəcəyik.

Sonra dövlət başçısı, birinci xanım və Leyla Əliyeva Pənahəli xanın sarayının qalıqlarına baxdılar. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.

**Prezident İlham ƏLİYEV:**

- Bura Pənahəli xanın sarayı olub. Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün, ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib.

Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər.

Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəldilər.

Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaq.

**Prezident İlham ƏLİYEV:**

- Bu, postamentin bünövrəsidir. Ermənilər dağıdıblar, biz bərpa edəcəyik.

Erməni vandalları işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksini də dağıdıblar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Karvansaray tarix-memarlıq kompleksinə baxdılar.

Dövlət başçısına burada görüləcək işlərlə bağlı məlumat verildi.

Şəhərdə erməni vəhşiliyi ilə üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır.

Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstərib.

**Prezident İlham ƏLİYEV:**

- Bura Şuşa şəhərinin rəsm qalereyası olub. Azərbaycan hökuməti burada qalereya təşkil etmişdi. İşğal zamanı düşmənlər buradan öz məqsədləri üçün istifadə etmişlər. İndi tamamilə yenidən bərpa ediləcək və yenə də rəsm qalereyası kimi fəaliyyət göstərəcək.

*Ardı 4-cü səh.*

















# İLHAM ƏLİYEV Novruz bayramını Şuşada qarşıladı





Əvvəli 3-cü səh.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Qarabağ" mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış oldular. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Dövlət başçısına və birinci xanıma Şuşa şəhərində tarixi-dini abidələrin bərpası ilə bağlı görülən işlər haqqında məlumat verildi.

**Prezident İlham ƏLİYEV:**

- Hotelin otaqları belə olacaq. İşğal dövründə hoteli də demək olar ki, dağıdıblar, burada cəmi bir mərtəbə işləyib. Pis vəziyyətdə idi, qısa müddət ərzində şourum kimi hazırlanıb. Hotelin bütün otaqları bu stildə olacaq.

"Qarabağ" hotelində gedən yenidənqurma işləri ilə tanış olduq. İşğal dövründə hotel faktiki olaraq fəaliyyət göstərmirdi, cəmi bir, ya iki mərtəbə fəaliyyət göstərirdi. Bu hotel də sovet dövründə Azərbaycanın büdcəsi hesabına tikilmişdir və ona "Qarabağ" adı verilmişdir. Sonra mənfur düşmən hotelin adını dəyişdirib "Şuşi palace" qoyub. "Şuşi" adlı bir şəhər yoxdur, olmayıb və heç vaxt olmayacaq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa Xalça Muzeyində də oldular. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb.





Dövlət başçısı, birinci xanım və Leyla Əliyeva Şuşada Park hotelin yerləşəcəyi binaya da baxdılar. Yenidənqurmadan sonra hotel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.

**Prezident İlham ƏLİYEV:**

- Burada keçmiş sanatoriya korpusu olub. İşğal dövründə buradan kiçik hotel kimi istifadə etmişlər, amma çox primitiv qaydada. Çox biabırçı bir şərait var idi. İndi yenidən bərpa edilir. Bu da şourumdur, hotelin otaqları bax belə olacaq və bu il hotel artıq istifadəyə veriləcəkdir.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına icra olunacaq layihələrlə bağlı məruzə etdi.

Dövlət başçısı Şuşada görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verdi.

**Prezident İlham ƏLİYEV:**

- Şuşa sanatoriyasına da baxış keçirdik. Orada da korpusların bir çoxu ermənilər tərəfindən dağıdılıb. Amma bəzi korpuslardan istifadə etmək mümkün olacaq. Burada da kiçik hotellərin yaradılması nəzərdə tutulur. Nəzərə almalıyıq ki, Şuşaya çox böyük turist axını olacaq, ona görə burada beş, dörd və üçulduzlu hotellər olmalıdır.

Buradan da şəhərə, şəhərin ətrafında yerləşən dağlara gözəl mənzərə açılır. Amma bir daha görürük, ermənilər burada demək olar ki, bir dənə də bina tikməyiblər. Bəlkə bu binanı tikiblər, bu da eybəcər bir tikilidir. Ancaq sovet vaxtında Azərbaycan tərəfindən tikilmiş binalardan istifadə etmişlər, azərbaycanlıların evlərində yerləşmişlər. Bütün bu evlər sovet vaxtından qalan evlərdir, "xruşşovka"lardır. Bunlar da öz müddətini çoxdan bitiriblər. Bu binaların vəziyyətinə indi diqqət yetirilməlidir.

Şuşada işğal dövründə təxminən 2000 adam yaşayırdı, onların da böyük hissəsi hərbçilər və onların ailə üzvləri idi. Ona görə də bu binaların böyük hissəsi boş qalmışdır. Baxın, burada bir dənə normal vəziyyətdə bina var, yoxsa yox?

Ermənilər Şuşanı erməni şəhəri kimi qələmə vermək istəyirlər. Halbuki Şuşanın təməlini qoyan Pənahəli xan olub və həmişə burada azərbaycanlılar yaşayıb. Yaxşı, erməni şəhəri idisə, niyə əl gəzdirməmisiniz? Şuşa kimi mənzərəsi, təbiəti olan şəhəri belə günə salmaq vəhşilikdir. Azərbaycanlıların evlərini dağıdıblar və hesab edirdilər ki, bu işğal əbədi olacaq. Biz işğala son qoyduq.

Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz. Bu da Realni məktəbin dağılmış binasıdır, görün, ermənilər bu binanı nə günə salıblar. Sol tərəfdə də mənə verilən məlumata görə, internat məktəbi olub. Bunu da dağıdıblar, ancaq fasad hissəsi qalıb.

Biz artıq Şuşadan ayrılırıq, ancaq yenə də ayrılmaq istəmirik. Şuşa insanı özünə o qədər cəlb edir ki, buraya gələnlər qayıtmaq, getmək istəmirlər. Ancaq indi biz Bakıya qayıtmalıyıq. Yolüstü Daşaltı kəndində dayanacağıq. O kəndə də baxacağıq. Ondan sonra istiqamət Bakı şəhəridir.

**Birinci xanım Mehriban ƏLİYEVA:**

- Hava günəşli, açıq, mavi səma.

**Prezident İlham ƏLİYEV:**

- Şuşaya "hələlik" deyirik. Şuşanın girişində Azərbaycan bayrağı dalğalanır və bundan sonra əbədi dalğalanacaqdır. Aşağıda da Laçın dəhlizidir. Hava da yenə bizimlə həmrəydir. Günəş yolumuzu işıqlandırır. Bura isə Şuşa yarımstansiyasının binasıdır. Bu bina qısa müddət ərzində inşa edildi və Şuşanı dayanıqlı enerji ilə təchiz edəcəkdir. Keçən dəfə də yanvar ayında Şuşaya gələndə, Şuşaya yaxınlaşanda hava açıldı, Günəş bizi salamladı.

Buradan da Şuşanın qayaları gözəl görünür. Çünki biz haqq yolundayıq, işimiz də haqq işidir. Təbiət də bizi salamlayır. Çünki bu Azərbaycan təbiətidir.

Bura isə Daşaltı kəndidir. Daşaltı kəndi ilə də tanış olacağıq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa rayonunun Daşaltı kəndinə gəldilər.

**Aydın KƏRİMOV:**

- O, Böyük Kirs dağıdır. Şuşanın su mənbələrindən biri onun ətəyindən gəlir.

**Birinci xanım:**

- Bu, yeni Daşaltı hesab olunur?

**Aydın KƏRİMOV: -** Bəli.

**Birinci xanım: -** O da köhnə Daşaltı.

**Prezident İlham ƏLİYEV:**

- Bizim hərbçilər oradan gəliblər.

Həm sağ tərəfdə, həm də sol tərəfdə Daşaltı kəndinin gözəl mənzərəsidir. Daşaltı kəndi də işğalçılardan azad edilib. Məhz bizim müzəffər ordumuz Daşaltıdan qalxaraq, sıldırım qayaları qət edərək Şuşaya daxil oldu. İrəlidə də Böyük Kirs dağıdır. Azərbaycanın gözəl təbiəti gözümüzün önündədir. Hansı tərəfə baxsan gözəllik, yaşıllıq. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaq.

❖ ❖ ❖

Erməni qəsbkarlar tərəfindən 1992-ci ildə işğal olunan Daşaltı kəndi də hərtərəfli terrora məruz qalıb. Prezident İlham Əliyev kəndin bərpası ilə bağlı tapşırıqlarını verdi.

# Azərbaycan Slovakiya ilə bütün sahələrdə əlaqələri genişləndirir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Slovakiyanın xarici və Avropa işləri naziri İvan Korçokun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Slovakiyanın xarici və Avropa işləri naziri Bakıda sonuncu dəfə təxminən 20 il əvvəl olduğunu qeyd etdi, bu səfər zamanı paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı.



Söhbət zamanı siyasi əlaqələr, iqtisadi əməkdaşlıq, ticarət əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsi, minalardan təmizləmə sahəsində əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi, dövlətlərin ərazi bütövlüyü və suverenliyi, sərhədlərin toxunulmazlığı prinsiplərinin dövlətlərarası münasibətlərdə aliliyi qeyd olundu.

# Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf etdirilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Türkiyə Respublikasının kənd təsərrüfatı və meşə naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nazir Bekir Pakdemirli Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.



Prezident İlham Əliyev Türkiyə dövləti başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Əfqan oğlu Hüseynova II dərəcəli dövlət miqrasiya xidməti müşaviri ali xüsusi rütbəsi verilsin.

2. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət miqrasiya xidməti müşaviri ali xüsusi rütbəsi verilsin:

Nağıyev Habil Sadıx oğlu - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya nəzarəti baş idarəsinin rəisi

Xudiyev Anar Xudayar oğlu - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Təşkilat-nəzarət baş idarəsinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2021-ci il*

# Azərbaycan Respublikasında miqrasiya sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**2-ci dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

Nağıyev Vəli Nağı oğlu

**"Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə**

Abbaszadə Aygül Nadir qızı
Ağayev Ruslan Rafael oğlu
Əhmədova Zərnişan Ağa qızı
Əkbərov Anar Bəkir oğlu
Hüseynov Fizuli Təvəkkül oğlu
İsayev Nail Mehdiqulu oğlu
Məmmədov Elnur Nizami oğlu
Nuriyev Gəray Həsən oğlu
Sayılov Amil Xubyar oğlu
Seyidova Şəhanə Rizvan qızı.

2. Miqrasiya sahəsində uzunmüddətli fəaliyyətinə və vətəndaş cəmiyyəti institutları ilə dövlət qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsində xidmətlərinə görə Azər Kərim oğlu Allahverənov "Tərəqqi" medalı ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2021-ci il*

# Azərbaycan ilə Beynəlxalq Olimpiya Komitəsi arasında əməkdaşlıq yüksək səviyyədədir

## Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti cənab Tomas Baxa

Hörmətli cənab Bax!

Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir və ən xoş arzularımı yetirirəm.

Keçirilmiş səsvermədə inamlı qələbəniz bütün Olimpiya ailəsi tərəfindən Sizə olan etimadın bariz göstəricisi, Olimpiya hərəkatının inkişafı, idmanın təşviqi sahəsində xidmətlərinizə verilən yüksək qiymətdir.

Məmnunluqla qeyd etmək istəyirəm ki, Azərbaycan ilə Beynəlxalq Olimpiya Komitəsi arasında əməkdaşlıq yüksək səviyyədədir və biz bu əməkdaşlığın daha da genişlənməsinə mühüm əhəmiyyət veririk. Əminəm ki, Olimpiya ideallarının təntənəsi naminə tərəfdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə daim müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2021-ci il*

# Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 4.2-ci bəndinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

İlqar Fəti-zadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Elnur Əliyev - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Anar Əliyev - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Vadim Xubanov - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Kamil Heydərov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin Monetar və fiskal siyasət məsələləri sektorunun müdiri.

2. "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2462; 2018, № 10, maddə 2107; 2019, № 2, maddə 311) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2021-ci il*

# Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının 100 illiyi münasibətilə Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə teatrın aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Baliyeva Natalya Gennadyevna
Əmirbəyova Rita Cəmil qızı

**"Tərəqqi" medalı ilə**

Lerman Viktoriya Anatolyevna
Rudıçev Nikolay Nikolayeviç
Saprıkina Lyudmila Qennadiyevna.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2021-ci il*

# Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının əməkdaşlarına fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının 100 illiyi münasibətilə Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə teatrın aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq artisti"**

Osmanov Fuad Tacəddin oğlu

**"Əməkdar artist"**

Ağayeva Həcər Maqsud qızı
Dubovitskaya Mariya Aleksandrovna
Əmirbəyov Oleq Arnoldoviç
Hacıyeva Natavan Nizami qızı
İmranova İnna Aleksandrovna
Klimaşeva Bella Vladislavovna
Məmmədov Murad Məmməd oğlu
Omelçenko Yuri Vladimiroviç
Rəhimov Teymur Əsgər oğlu
Sokolenko Milana Aleksandrovna

**"Əməkdar mədəniyyət işçisi"**

Məmmədov İlham Əli İslam oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2021-ci il*

# Baş nazir Əli Əsədov Türkiyənin kənd təsərrüfatı və meşə naziri ilə görüşüb

**Martın 17-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının kənd təsərrüfatı və meşə naziri Bekir Pakdemirlinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Türkiyə ilə Azərbaycan arasında bitkiçilik, heyvandarlıq, aqrar sığorta sahəsində təcrübə mübadiləsi, aqrar sahədə təhsil, suyun idarə olunması, ətraf mühitin qorunması və inkişafı, yaşıl enerji və işğaldan azad olunmuş ərazilərin bərpası məsələləri müzakirə olunub.

# İşğaldan azad olunmuş ərazilərə Azərbaycanın dəvət etdiyi UNESCO missiyası ilə bağlı müzakirələr aparılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin UNESCO-nun Baş direktoru Odre Azule ilə telefon danışığının davamı olaraq, 2021-ci il fevralın 15-də və martın 16-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev UNESCO-nun Baş direktorunun ofisinin rəhbəri Nikolas Kassionides ilə videokonfrans formatında görüşlər keçirib.



AZƏRTAC xəbər verir ki, görüşlərdə "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə" 1954-cü il Haaqa Konvensiyasına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərə Azərbaycanın dəvət etdiyi UNESCO missiyası ilə bağlı müzakirələr aparılıb.

Azərbaycanın UNESCO ilə əməkdaşlığa böyük önəm verdiyini, konstruktiv dialoqa həmişə açıq olduğunu qeyd edən Hikmət Hacıyev sonuncu videogörüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mədəni və dini abidələrə vurulmuş zərərin qiymətləndirilməsi üçün ölkəmizin UNESCO missiyasını qəbul etməyə hazır olduğunu bir daha diqqətə çatdırıb.

Hikmət Hacıyev 30 ilə yaxın işğal dövrü ərzində həmin ərazilərdə Azərbaycan xalqının mədəni və dini irsinə qarşı Ermənistanın törətdiyi vandalizmin miqyasının dəhşətli olduğunu bildirib.

Prezidentin köməkçisi görüşdə Azərbaycanın mədəni və dini abidələrin qorunması sahəsində nümunəvi təcrübəyə malik olduğunu, ölkəmizin beynəlxalq səviyyədə mədəni-dini abidələrin bərpasına töhfə verdiyini qeyd edib. O, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın nəcib təşəbbüsü ilə bu yaxınlarda Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin daxil olduğu nümayəndə heyətinin Vatikanda səfərdə olduğunu və səfər çərçivəsində Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tacın Müqəddəs Arxeologiya Şurası arasında Müqəddəs Komodilya katakombalarının bərpasına dair yeni əməkdaşlıq müqaviləsinin imzalandığı haqqında məlumat verib.

# Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80 illiyi münasibətilə Azərbaycanda muzey işinin inkişafı və mədəni irsin təbliğində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Əlibəyli Şəfəq Ənvər qızı

**"Tərəqqi" medalı ilə**

Allahyarov Kamil Hüseyn oğlu
Əliyeva Fatma Oruc Kuli qızı
Səfiyeva İnarə Bahadur qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2021-ci il*

# Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əməkdaşlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80 illiyi münasibətilə Azərbaycanda muzey işinin inkişafı və mədəni irsin təbliğində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Bəşirli Xatirə Bədrəddin qızı
Sadırxanov Ridvan Sultanoviç
Şamilova Kübra Əsədulla qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2021-ci il*

# Azərbaycandakı siyasi partiyaların rəhbərləri və politoloqlar işğaldan azad edilmiş Ağdam rayonunda səfərdə olublar

**Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, ölkəmizdəki siyasi partiyaların rəhbərlərinin və bir sıra politoloqların işğaldan azad edilmiş Ağdam rayonuna səfəri təşkil olunub.**


















Onları Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev müşayiət edib.

AZƏRTAC xəbər verir ki, siyasi partiya rəhbərləri və politoloqlar əvvəlcə rayonun Yuxarı Qərvənd kəndində Kümbəz restoranının hazırkı vəziyyəti ilə tanış olub, Uzundərə ərazisində yerləşən, işğal zamanı erməni vandallarının dağıtdıqları İkinci Şəhidlər xiyabanının dağıntılarına baxıblar. Bildirilib ki, vaxtilə burada 1000-dən çox şəhid dəfn edilib. Lakin indi həmin məzarlıqdan əsər-əlamət qalmayıb. Yolboyu hərbi istehkamların olduğu ərazilərlə tanış olan səfər iştirakçılarına həmin qurğuların mürəkkəbliyi barədə məlumat verilib.

Səfər zamanı Qarabağ xanlarının türbələrinin yerləşdiyi İmarət qəbiristanlığı da ziyarət edilib. Bildirilib ki, qəbiristanlıqda Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın, həmçinin İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, Mehdiqulu xanın qızı, şairə Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. 1993-cü ildə Ağdam şəhəri işğal olunduqdan sonra qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini, Natəvanın qəbirüstü abidəsini də dağıdıblar.

Qeyd edilib ki, vaxtilə "Qarabağ" futbol klubunun ev oyunlarını keçirdiyi "İmarət" stadionu da yağı düşmən tərəfindən dağıdılıb. Əvvəllər bu stadionda el şənlikləri, festivallar, incəsənət xadimlərinin konsertləri də təşkil edilərdi. Natəvanın yaxınlıqda ucaldılmış heykəlindən əsər-əlamət qalmayıb.

Nümayəndə heyəti Ağdam Çörək Muzeyinin dağıntıları ilə də tanış olub. Diqqətə çatdırılıb ki, dünyada ikinci hesab edilən bu muzey cəmi 9 il - 1983-cü ildən 1992-ci ilədək fəaliyyət göstərib. Muzeydə nadir eksponatlar - taxılçılıqla bağlı arxeoloji tapıntılar toplanmışdı. Eksponatlar arasında daşa dönmüş dənlər, əl dəyirmanları, qab-qacaq, qədim kitablar, əlyazmalar, əkinçilik alətlərindən (oraq, xış, taxıldöyən vərdənə və s.) bəhs edən müxtəlif dəyərli nümunələr olub.

Sonra siyasi partiya rəhbərləri və politoloqlar Ağdamın I Şəhidlər xiyabanını ziyarət ediblər. Məlumat verilib ki, burada I Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib.

Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbri də buradadır. Ermənilər xislətlərinə uyğun olaraq, Şəhidlər xiyabanındakı qəbirlərin əksəriyyətini qarət məqsədilə qazaraq dağıdıblar.

Nümayəndə heyəti həmçinin Cümə məscidini ziyarət edib, Dram Teatrının, Çay evinin dağıntılarına baxıb. Qeyd edilib ki, Ağdam Cümə Məscidi 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabağı tərəfindən tikilib. Bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər tərəfindən dağıntılara məruz qalan Ağdam məscidinin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

Diqqətə çatdırılıb ki, Ağdamda törədilən dağıntılar erməni vandalizminin və barbarlığının bariz nümunələridir. Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da ölkəmizin tarixi-mədəni irsinə qarşı misli görünməmiş vandalizm aktları həyata keçiriblər. Rayondakı bütün abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir olunub, bəziləri isə erməniləşdirilib.

Ermənilər işğal etdikləri ərazilərdə azərbaycanlılara məxsus tarixi və dini irsi silməyə çalışsalar da, buna nail olmayacaqlar. Azad edilmiş ərazilərin tamamilə yenidən qurulacağını bildirən Azərbaycan Prezidenti İlham Əliyev Ağdam məscidinin qarşısındakı çıxışında deyib: "Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik".

Siyasi partiyaların rəhbərlərinin və politoloqların Ağdamdakı son dayanacağı Şahbulaq qalası olub. Bildirilib ki, Qarabağın ən məşhur abidələrindən biri Ağdam rayonunun ərazisində yerləşən və XVIII əsrə aid olan Şahbulaq qalasıdır. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən bu qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Kompleksin ətrafı mühafizə divarları, nəzarətçi qüllələri ilə əhatələnib. Şahbulaq saray kompleksinin şimal-qərbində, bulağın yaxınlığında məscid də inşa edilib. Qəsr adını gursulu bulağın adından alıb.

Pənahəli xan Şuşa qalasını inşa etdirənədək Şahbulaq qalası Qarabağ xanlığının inzibati mərkəzi olub. Şahbulaq tikililəri Qarabağ xanlığının, xüsusilə də onun paytaxtı olmuş Şuşa şəhərinin memarlığına təsir göstərib.

Hazırda Şahbulaq qəsr kompleksindən bulaq yanındakı təpə üzərində ucalan qala və məscid binası qalıb. Ermənilər 1993-cü ildə Ağdamı işğal etdikdən sonra əksər abidələrimiz kimi, Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər.

Bununla da Azərbaycandakı siyasi partiya rəhbərlərinin və politoloqların işğaldan azad olunmuş Ağdam rayonuna səfəri başa çatıb.

# İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin göstərişinə əsasən, ən yüksək səviyyədə quruculuq işləri aparılır




**"İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin göstərişinə əsasən, ən yüksək səviyyədə quruculuq işləri aparılır".**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bu fikri martın 17-də Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Vətən müharibəsində iştirak etmiş bir qrup həkimlə görüşərkən səsləndirib.

Qonaqları Milli Məclisdə salamlayan sədr müavini Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın düşmən işğalından azad edilməsindən danışaraq, bu Qələbənin ölkəmizin şanlı tarixinin ən parlaq səhifəsi olduğunu qeyd edib. Bildirib ki, bu Qələbə dövlət başçısı tərəfindən diplomatik müstəvidə də uğurla davam etdirilib.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə səfərlərinə diqqətçəkən sədr müavini oradakı vəziyyətin rəsmi İrəvanın vandalizm siyasətinin sübutu olduğunu qeyd edib. Əlavə edib ki, bu dağıntılardan görünür ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerləyeksan etməklə tarixi irsimizi silməyə çalışıb.

Adil Əliyev işğaldan azad olunmuş ərazilərə yeni nəfəsin gəlməsindən məmnunluğunu ifadə edərək bu ərazilərimizin dünyanın ən gözəl guşələrindən birinə çevriləcəyinə əminliyini bildirib. Qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə infrastruktur layihələri fasiləsiz icra olunur. Bu baxımdan dövlət başçısının səfəri zamanı martın 15-də Füzuli-Hadrut avtomobil yolunun təməlqoyma mərasiminin keçirilməsi böyük əhəmiyyətə malikdir.

Sədr müavini bu gün bərpasına başlanılan ərazilərimizin güclü siyasi iradə, diplomatik mübarizə və şəhidlərimizin qanı hesabına başa gəldiyini qeyd edərək şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyib.

Görüşdə iştirak edən həkimlər torpaqlarımızın düşmən işğalından azad edilməsindən qürur duyduqlarını və yaralanmış hərbi qulluqçularımıza xidmət göstərməyin onların vətəndaşlıq borcu olduğunu diqqətə çatdırıblar. Söhbət zamanı qazilərimizin daim diqqət mərkəzində saxlanmasının vacibliyi vurğulanıb.

Sonda Vətən müharibəsində xidmət etmiş həkimlərə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanları təqdim olunub.

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının ilk iclası

**Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 fevral tarixli Sərəncamına əsasən yaradılmış "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının ilk iclası keçirilib.**

Qurumdan AZƏRTAC-a bildiriblər ki, Müşahidə Şurasının sədri, maliyyə naziri Samir Şərifovun sədrliyi ilə keçirilən iclasda Müşahidə Şurasının və Cəmiyyətin İdarə Heyətinin üzvləri iştirak ediblər.

Cəmiyyətin Müşahidə Şurasının sədri və üzvləri göstərilən etimada görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Nazir Samir Şərifov vurğulayıb ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının ilk iclasının dövlət başçısının bu günlərdə açılışını etdiyi səhmdar cəmiyyətin yeni binasında baş tutması əlamətdar hadisədir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ölkəmizin ən qocaman şirkətlərindən biri kimi, zəngin və şərəfli bir yol keçib. 160 ildən artıq zəngin təcrübəyə malik şirkət öz parlaq tarixi boyunca hər bir mərhələdə milli iqtisadiyyatımızın inkişafına əhəmiyyətli töhfələr verib. Cəmiyyətin fəaliyyət coğrafiyası təkcə Xəzər hövzəsi ilə məhdudlaşmır, dünyanın bir çox tanınmış ərazilərini, yükdaşıma bazarlarını əhatə edir.

Azərbaycanın Avropa ilə Asiya arasında əlverişli coğrafi mövqeyi və Xəzərdən keçən beynəlxalq yükdaşıma marşrutları hazırda Xəzər Dəniz Gəmiçiliyinin nəqliyyat donanmasının tranzit yükdaşımalarının həyata keçirilməsində xüsusi əhəmiyyətini daha da artırır. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Xəzər dənizində irimiqyaslı neft və qaz layihələrinin və beynəlxalq yük daşınmalarının müvəffəqiyyətlə həyata keçirilməsində, ölkəmizin rəqabət qabiliyyəti və tranzit potensialının gücləndirilməsində mühüm rola malikdir və cəmiyyət Xəzərdə özünün aparıcı mövqeyini qoruması üçün bundan sonra daha böyük əzmlə çalışmalıdır.

Müşahidə Şurasının sədri xatırladıb ki, dövlət başçısının rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı yeni islahatlar mərhələsinə qədəm qoyub. Bu yeni mərhələdə ölkədə iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, onların gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi, paylarının nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslərin idarə olunmasının təkmilləşdirilməsi qarşıda duran əsas çağırışlardandır.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi və daha da inkişafına yönəldilmiş addımların atılması Müşahidə Şurasının əsas vəzifəsidir. S.Şərifov əmin olduğunu bildirib ki, Müşahidə Şurası QSC-nin İdarə Heyəti ilə əməkdaşlıq müstəvisində çalışaraq qabaqcıl təcrübə və müasir idarəetmə çərçivəsində cəmiyyətin işində səmərəliliyi artırmaq, onun idarə olunmasını müasir korporativ idarəetmə standartları nəzərə alınmaqla təkmilləşdirmək istiqamətində fəaliyyət göstərəcəkdir.

İclasda cəmiyyətin korporativ idarəetmə sisteminin prinsipləri, Müşahidə Şurasının funksiyası və səlahiyyətləri ilə bağlı Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktorunun müavini Zaur Qurbanovun, cəmiyyətin fəaliyyəti üzrə aktual məsələlərlə bağlı isə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Rauf Vəliyevin təqdimatları dinlənilib. Azərbaycan Prezidentinin müvafiq fərman və sərəncamlarından irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə həyata keçiriləcək tədbirlərlə bağlı müzakirələr aparılıb.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan və Slovakiya arasında siyasi dialoqu yüksək qiymətləndiririk"

**"Azərbaycan və Slovakiya arasında siyasi dialoqu yüksək qiymətləndiririk. 2019-cu ildə Slovakiya Respublikasının Azərbaycan Respublikasında səfirliyi açılıb. Bunu ikitərəfli münasibətlərin inkişafı baxımından yüksək dəyərləndiririk".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov martın 17-də Slovakiya Respublikasının xarici və Avropa işləri naziri İvan Korçok ilə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Qarşılıqlı iqtisadi əlaqələrə toxunan nazir qeyd edib ki, ölkələrimiz arasında iqtisadi əlaqələndirmə mexanizminin yaradılması ilə bağlı addımların atılması nəzərdə tutulur. Beynəlxalq platformalarda ölkələrimiz arasında əməkdaşlıq məsələləri də müzakirə olundu. "Hazırda biz regionun xüsusi bir dövrünü yaşayırıq. 44 günlük Vətən müharibəsinin nəticəsində torpaqlarımız erməni işğalından azad edildi. Azərbaycan dövlətinin mövqeyi dövlətlərarası münasibətlərin yaradılmasını və inkişaf etdirilməsini özündə əks etdirir. Regionda sabitliyin və inkişafın bərqərar olunması üçün dövlətlər üçtərəfli Bəyanatın tələblərinə riayət etməlidirlər. Lakin təəssüf ki, bu tələblərin Ermənistan tərəfindən pozulması halları müşahidə edilir. Bütün bu hallara son qoyulmalıdır.

İşğal altında olan torpaqları kütləvi şəkildə minalayan Ermənistan bu minaların xəritəsini Azərbaycan tərəfinə verməkdən boyun qaçırır. Bu gün Azərbaycan postmünaqişə dövrünün tələblərinə uyğun olaraq işğaldan azad edilən ərazilərin bərpası ilə məşğuldur. Bu, böyük vəsait və zaman tələb edir. Əminik ki, Azərbaycan dövləti bu vəzifənin də öhdəsindən uğurla gələcəkdir. Dost ölkələrin bu işlərə cəlb edilməsi prioritet məsələdir.

Azərbaycan və Slovakiya arasında münasibətlər beynəlxalq hüququn prinsiplərinə söykənir. Əminik ki, bu münasibətlər bundan sonra xalqlarımızın rifahına xidmət edəcək", - deyə Ceyhun Bayramov bildirib.

# Azərbaycanın xarici işlər naziri slovakiyalı həmkarı ilə görüşüb

Martın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Slovakiyanın xarici və Avropa işləri naziri İvan Korçok ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə hər iki tərəfdən geniştərkibli nümayəndə heyətləri iştirak ediblər.



Nazir Ceyhun Bayramov ölkələrimiz arasında ikitərəfli münasibətlərin bir sıra istiqamətlər üzrə inkişaf etdiyini və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcud olduğunu qeyd edib. İqtisadi sahədə ikitərəfli əməkdaşlığın inkişafı, habelə qarşılıqlı investisiyaların təşviqi məqsədilə ardıcıl işlərin aparılmasının əhəmiyyəti vurğulanıb.

İvan Korçok Azərbaycan Respublikasının Prezidenti ilə keçirilmiş görüşü məmnunluqla qeyd edib, ölkələrimiz arasında mövcud olan siyasi dialoqun davam etdirilməsinin vacibliyini səsləndirib. O, dövlətlərarası münasibətlərin təməlində duran beynəlxalq hüquq prinsiplərinə hörmət edilməsinin vacibliyini vurğulayıb.

Ceyhun Bayramov həmkarına 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı tərəfimizdən görülən tədbirlər, Ermənistan tərəfinin sözügedən bəyanatlarla üzərinə götürdüyü öhdəliklərə uyğun olmayan davranışları, azad olunmuş ərazilərdə insanların həyatına birbaşa təhdid olan mina təhdidi, Ermənistanın beynəlxalq humanitar hüquqa zidd şəkildə mina xəritələrini Azərbaycan tərəfinə verməkdən imtina etməsi ilə bağlı qarşı tərəfə ətraflı məlumat verib.

Nazirlər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Daha sonra nazirlərin iştirakı ilə mətbuat konfransı keçirilib.

# QDİƏT PM-in İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri komitəsinin 56-cı iclası keçirilib

Martın 17-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri komitəsinin videokonfrans formatında 56-cı iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, videokonfransda qurumdakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyev, nümayəndə heyətinin üzvü Elşad Mirbəşiroğlu və digər üzv ölkələrin - Rusiya, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Albaniya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Serbiya və Ermənistanın nümayəndələri iştirak ediblər.

Qurumun İstanbuldakı Beynəlxalq Katibliyinin təşkil etdiyi videokonfransda əvvəlcə gündəlik qəbul olunub. Sonra QDİƏT PM-in İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri komitəsinin 2020-ci ilin oktyabrında onlayn rejimdə keçirilmiş 55-ci iclasının protokolu təsdiqlənib.

"İnsan alverinin qarşısının alınmasında parlamentlərin rolu: iqtisadi aspektlər" mövzusuna həsr olunmuş 56-cı iclasda məruzə layihəsini Albaniya nümayəndə heyətinin rəhbəri Andrea Marto, tövsiyə layihəsini Türkiyə nümayəndə heyətinin rəhbəri Cemal Öztürk təqdim ediblər.

Mövzu ətrafında çıxışlardan sonra iclasda "İnsan alverinin qarşısının alınmasında parlamentlərin rolu: iqtisadi aspektlər" mövzusunda məruzə təsdiqlənib və Baş Assambleyada təqdim olunması üçün Andrea Marto məruzəçi təyin olunub. İclasda təşkilati məsələlərə də baxılıb. Bolqarıstan nümayəndə heyətinin rəhbəri Petar Kanev QDİƏT PM-in İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri komitəsinin yeni sədri seçilib.

Tədbirdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş katibi Asəf Hacıyev də iştirak edib. Videokonfransın yekununda İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri komitəsinin 57-ci iclasının sentyabrın 15-16-da Bolqarıstanda keçirilməsi qərara alınıb.

# Fövqəladə hallar naziri İqtisadi Əməkdaşlıq Təşkilatının Fəlakət risklərinin idarə olunması üzrə VIII nazirlər konfransında iştirak edib

Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov martın 17-də İqtisadi Əməkdaşlıq Təşkilatının Fəlakət risklərinin idarə olunması üzrə VIII Nazirlər konfransında iştirak edib.



Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videokonfrans şəklində keçirilmiş beynəlxalq tədbirdə, həmçinin Türkiyə, Pakistan, Əfqanıstan, İran, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Tacikistan və Özbəkistanın fövqəladə halların idarə olunmasına cavabdeh olan dövlət qurumlarının rəhbər şəxsləri iştirak ediblər.

"Fəlakət risklərinin azaldılması, BMT-nin Senday çərçivə proqramının həyata keçirilməsi" mövzusunda keçirilmiş tədbirin təşkilində əsas məqsəd 2015-2030-cu illəri əhatə edən Senday fəaliyyət çərçivəsi sənədinin və Dayanıqlı İnkişaf Məqsədlərinin əhatə etdiyi istiqamətlər üzrə görülmüş işlərin və qarşıda duran məsələlərin müzakirəsi, habelə fəlakət risklərinin azaldılması üzrə milli strategiyalar barəsində məlumat mübadiləsinin aparılması olub.

Konfransda çıxış edən nazir Kəmaləddin Heydərov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, ölkəmizdə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində zəruri tədbirlər həyata keçirilir. Nazir Azərbaycanda həmin istiqamətdə atılan addımlar barədə ətraflı danışaraq, bu sahədə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın əhəmiyyətini qeyd edib. O, Senday çərçivə proqramının icra vəziyyəti ilə bağlı tədbir iştirakçılarına məlumat verib.

İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin aidiyyəti dövlət qurumlarının rəhbərləri ölkələrində fəlakət risklərinin azaldılması və Senday çərçivə proqramı üzrə görülən tədbirlər barədə danışıblar. Həmçinin konfrans çərçivəsində qazanılmış təcrübə və istifadə olunan mexanizmlər, qarşıda duran məsələlər ətrafında geniş müzakirələr aparılıb.

# Müdafiə naziri işğaldan azad edilmiş ərazilərdə yerləşən bölmələrə baxış keçirib





İşğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, görülən işlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti işğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan iki bölmədə aparılan işlərlə tanış olaraq modul tipli komplekslərə baxış keçirib və çay süfrəsi arxasında hərbi qulluqçularla söhbət aparıb.

Xatırladaq ki, azad edilmiş ərazilərdə şəxsi heyətin rahat yerləşməsi, qidalanması və məişət şəraitinin yüksək səviyyədə təmin edilməsi məqsədilə qısa müddətdə onlarca müxtəlif təyinatlı modul tipli komplekslər quraşdırılıb. Bu istiqamətdə fəaliyyətlər hazırda da davam etdirilir. İşğaldan azad edilmiş ərazilərdə şəxsi heyətin ərzaq, təzə tərəvəz və digər kənd təsərrüfatı məhsulları ilə təminatını gücləndirmək məqsədilə Ali Baş Komandanın tapşırığına əsasən, yeni ərzaq anbarları tikilərək istifadəyə verilib.

Şəxsi heyətin ilboyu təzə və yüksək kalorili ərzaq ilə təmin olunması məqsədilə istifadəyə verilən bu anbarlarda saxlanılan məhsullar təminatı gücləndirmək üçün müxtəlif istiqamətlərdə yerləşən hərbi hissə və bölmələrə çatdırılır.

# Müdafiə naziri təlimlər çərçivəsində Hərbi Hava Qüvvələrinin birləşmiş komanda məntəqəsində olub

Azərbaycan Ordusunun əməliyyat-taktiki təlimləri çərçivəsində Hərbi Hava Qüvvələrinin zenit-raket qoşunları və hərbi aviasiyanın qarşılıqlı fəaliyyətinin təşkilini yoxlamaq məqsədilə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Hərbi Hava Qüvvələrinin birləşmiş komanda məntəqəsində olublar.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov müasir avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilmiş birləşmiş komanda məntəqəsinin fəaliyyəti barədə müdafiə nazirinə məruzə edib. Bildirilib ki, müasir texnoloji avadanlıqla təchiz edilən məntəqə Hərbi Hava Qüvvələrinin fasiləsiz döyüş növbətçiliyinin aparılması, qoşunların qısa müddətdə döyüş vəziyyətinə gətirilməsi, eləcə də istənilən iqlim şəraitində və sutka ərzində düşmənin hava hədəflərinin izlənilməsi, kəşfiyyat məlumatlarının toplanılması, təhlili, qərarların vaxtında qəbulu və aviasiya qüvvələrinin döyüş tapşırıqlarını maksimal effektiv icrasını təmin edir. Qeyd edilib ki, təlimlər çərçivəsində komanda məntəqəsi, həmçinin şərti düşmənin aşkar olunan hava hədəflərinin məhv edilməsi üçün əldə edilən məlumatların zenit-raket komplekslərinin komanda məntəqələrinə ötürülməsini təmin edir.

Birləşmiş komanda məntəqəsindəki şəraitlə maraqlanan müdafiə naziri xidmətin və döyüş növbətçiliyinin təşkili və aparılması ilə bağlı müvafiq tapşırıqlar verib.

# Baş Prokurorluq ehtiyatda olan general-leytenant Rövşən Əkbərovun həbs edilməsi ilə bağlı yeni məlumat yayıb

Azərbaycan Respublikasının vətəndaşı, 1971-ci il təvəllüdlü Əliyev Elçin Fəday oğlunun 2001-ci il iyunun 1-də Ukraynanın paytaxtı Kiyevdə soyuq silahla qəsdən öldürülməsi faktı ilə bağlı bu ölkənin prokurorluq orqanlarında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, bir sıra istintaq tədbirləri yerinə yetirilib. Cinayətin törədilməsində Azərbaycan Respublikasının vətəndaşının şübhəli olması əsası ilə cinayət işi 2003-cü ildə Azərbaycan Respublikasına göndərilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin cinayət işi üzrə Azərbaycan Respublikasının Hərbi və Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində (əvvəlki) bir sıra istintaq hərəkətləri həyata keçirilib. Lakin iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyənləşdirilmədiyindən cinayət işi üzrə icraat dayandırılıb.

2020-ci ildə cinayət işi Baş Prokurorluqda yenidən öyrənildikdən sonra Baş Prokurorluğun rəhbərliyi tərəfindən cinayət işi üzrə icraatın dayandırılması haqqında qərar ləğv edilməklə icraat təzələnib və Baş Prokurorluğun İstintaq idarəsində çoxsaylı istintaq hərəkətləri aparılaraq iş üzrə kifayət qədər sübutlar toplanıb, həmin cinayət əməlinin Əkbərov Rövşən Telman oğlu tərəfindən törədilməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Belə ki, Azərbaycan Respublikası vətəndaşı, 1965-ci il təvəllüdlü Əkbərov Rövşən Telman oğlunun 2001-ci il mayın 31-dən 2001-ci il iyunun 1-nə keçən gecə Kiyev şəhəri, Deqtyaryov küçəsi, 7 ünvanda yerləşən "Sikora" kafesində yeyib-içdikdən sonra təxminən saat 2-3 radələrində həmin kafenin yaxınlığında Əliyev Elçin Fəday oğlu ilə aralarında yaranmış cüzi münaqişə səbəbindən xuliqanlıq niyyəti ilə Elçin Əliyevin ürək nahiyəsinə kəsici-deşici predmetlə xəsarət yetirərək, sonuncunu qəsdən öldürməsinə şübhələr üçün əsaslar müəyyən olunub.

Cari il martın 15-də Rövşən Əkbərov Cinayət Məcəlləsinin 12.1, 120.2.2-ci (qəsdən adam öldürmə) və 12.1, 221.3-cü (xuliqanlıq) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib. Ona həmin maddələrlə ittiham elan edilib və Baş Prokurorluğun təqdimatına əsasən Bakı Hərbi Məhkəməsinin həmin tarixli qərarı ilə barəsində dörd ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Baş Prokurorluq bu qəbildən olan məlumatların həssaslığını nəzərə alaraq, kütləvi informasiya vasitələrində dəqiqləşdirilməmiş informasiyalara istinad olunmamasını xahiş edir.

Qəzet mövzusunda

# Bakıdan rayon mərkəzlərinə 3-4 saata, rayon mərkəzlərindən kəndlərə 3-4 günə

Jurnalistləri bal arısına bənzədənlər yanılmayıblar. Bal arıları güldən-gülə, çiçəkdən-çiçəyə qonub şirə çəkərək insanlar üçün faydalı bir məhsul ortaya çıxardıqları kimi, jurnalistlər də aktual bildikləri, cəmiyyət üçün vacib hesab etdikləri mövzuları, eləcə də rastlaşdıqları hadisələri qələmə alır, faktlar toplayır, təhlillər, müqayisələr aparır və beyinlərinin süzgəcindən keçirərək ictimaiyyətə çatdırırlar.

Amma bu da jurnalistikada, o cümlədən qəzetçilikdə jurnalistlərin gördükləri işlərin hamısı deyil. Gün ərzində ölkənin, eləcə də dünyanın ictimai-siyasi həyatında baş verən mühüm hadisələr, xəbərlər, verilən sərəncamlar, qəbul edilən qanunlar, qərarlar operativ dərc olunaraq oxuculara çatdırılmalıdır. Rəsmi mənbələrdən belə materiallar isə redaksiyaya bəzən gecəyarısı daxil olur. Belə halda qəzeti “söküb”, yenidən qurmaq lazım gəlir. Ona görə də jurnalistlər üçün iş günü və saatı anlamı yoxdur. Onlar həftənin 7 günü və az qala sutkanın 24 saatı iş başındadırlar.

Amma bunları yazmaqda məqsədimiz heç də qəzetçiliyin mürəkkəbliyini qabartmaq deyil, baxmayaraq ki, bunu danmaq, görməzliyə vurmaq da olmaz. Jurnalistlər belə həyatı könüllü qəbul etmişlər: əgər sən qəzetçi peşəsini seçmisənsə, rahatlığını birdəfəlik unut, çünki sən dünyanın yaxşısına da, pisinə də cavabdeh olan peşə sahibisən.

İndi isə keçək əsas mətləbə. Yəni sadaladığımız və sadalamadığımız zəhmət bahasına başa gələn qəzetlərin son ünvana - oxucuya çatdırılmasına. Təəssüf hissi ilə qeyd etməliyik ki, bu gün ölkədə mətbuatın yayılması, çatdırılması prosesi, yumşaq desək, bərbad vəziyyətdədir. Biz heç də mövcud qəzet köşklərinin əsas “işi”nin əhaliyə qəzet və jurnal çatdırmaqdan daha çox saqqız və sudan tutmuş siqaretəcən satan universal kiçik ticarət obyektlərinə çevrildiklərini nəzərdə tutmuruq. Bu barədə çox yazılıb, deyilib, göstərilib və təəssüf ki, heç bir nəticəsi olmayıb! Qısa da olsa, bu dəfə bəhs etmək istədiyimiz problem qəzetlərin kənd yerlərindəki abunəçilərə vaxtında çatdırılması, daha doğrusu, çatdırılmamasıdır.




Deməli, proses belədir: gündəlik qəzetlər rayon mərkəzlərinə məsafədən asılı olaraq gündüz saatlarında gəlib çıxır. “Mətbuatyayım” ASC-nin yerlərdəki idarələri və ya şöbələri gələn qəzetləri qəbul edib çeşidləyir. Qəzetlər həmin günün ikinci yarısında rayon mərkəzlərindəki abunəçilərə çatdırılır. Qəsəbə və kəndlərə gəldikdə isə, burada vəziyyət fərqlidir, başqa sözlə desək, acınacaqlıdır. Məsələ burasındadır ki, kənd və qəsəbələrdəki abunəçilər qəzetləri dərc edildiyi tarixdən 2-3, hətta bəzən 4 gün sonra ala bilirlər. Səbəbi də odur ki, regional idarələr tərəfindən yerlərə göndərilən qəzetlər çeşidlənib rayon mərkəzindəki abunəçilərə çatası olanlar götürüldükdən sonra qəsəbə və kəndlərdəki abunəçilərin qəzetləri növbəti gün poçt gətirən maşınla təzədən “Mətbuatyayım”ın regional idarələrinə göndərilir. Qəzetlər yalnız həmin günün ertəsi regional poçt filialının xətlər üzrə təhkim olunmuş maşınları ilə qəsəbə və kəndlərə çatdırılır.

“Mətbuatyayım” ASC-nin Neftçala rayonu üzrə sahə rəisi Leyla Zahidova deyir ki, 33 ildir bu işdə çalışır: “Əvvəllər mühasib işləmişəm. Regional idarələr yarananda ştatlar ixtisara düşdü. Məsləhət gördülər ki, qalıb sahə rəisi kimi fəaliyyətimi davam etdirim. Ötən illər ərzində abunənin heç vaxt belə vəziyyətdə olduğunu görməmişəm. Təkcə keçən illə müqayisədə abunə 40-50 faiz azalmışdır. Bunun da nəticəsində əməkhaqqım 250 manatdan 118 manata düşmüşdür. Doğrusu, işə gəlməyə həvəsim də qalmayıb”.

Biləsuvar rayonunda sözügedən sahə üzrə çeşidləyici işləyən Füzuli Məmmədov da təxminən eyni gileyləri dilə gətirdi: “Bir qəzetin yerlərə çatdırılması üçün ayrılan vəsait 2 qəpikdir. Bu gün bir kənddə ən yaxşı halda 5-6 abunəçi olur. Siz deyin, günə 10-12 qəpiyə kim işləyər?”

Göründüyü kimi, bir tərəfdən abunənin sayının kəskin azalması, digər tərəfdən bir neçə il bundan öncə “Azərpoçt” MMC və “Azərmətbuatyayım” ASC-nin regional idarələrinin yaradılması qəzetlərin kənd və qəsəbələrdəki abunəçilərə vaxtında çatdırılması sarıdan bir sıra problemlər doğurmuşdur. Yeni qurumlar işi təkmilləşdirmək, asanlaşdırmaq əvəzinə, əksinə, çətinliklər, bürokratik əngəllər törətmişlər.

Heç nə izah etmək mümkün deyil ki, rayon mərkəzinə gələn qəzet və jurnalları həmin rayonun kəndlərinə çatdırmaq üçün onlar yenidən niyə regional idarələrə qaytarılmalıdır?! Bu, nəqliyyatla bağlıdırsa, zəhmət çəkib problemi həll etsinlər. Yox, əgər güman edirlərsə ki, kənd camaatı qəzet oxumur, onlara nə bu dövlətin qanunları, hökumətin qərarları lazımdır, nə də Prezidentin imzaladığı sənədlərin məzmunu, səhv fikirləşirlər. Ən azından ona görə ki, həmin qanun və qərarlar, sərəncam və fərmanlar əhali üçündür. Azərbaycanda isə əhlainin təxminən yarısı kəndlərdə yaşayır. Yəqin ki, təkcə bu arqument və ya fakt kifayətdir ki, mövcud problemin həlli üçün tədbirlər görülsün və bir gün “ömrü” olan qəzetlər oxuculara gec çatdırılma səbəbindən yazılı kağız parçasına çevrilməsin.

Azərbaycan maarifçiləri XIX əsrdə qəzet - yazılı mətbuat yaratdılar ki, xalqı maarifləndirsinlər, doğru yola yönəltsinlər. XXI əsrdə isə həmin qəzetlərin insanlara çatdırılması yolları bağlanılır. Güman etmirik ki, bu yazı ilə problem həllini tapsın. Çünki dövlət səviyyəsində bu məsələ ilə məşğul olan yoxdur! Özəl qurumlar isə şəxsi maraqlarını düşünürlər.

Deyəsən, növbə qəzetlərin sıradan çıxarılmasına çatıb! Görək sonrası nə olur...

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

# Sosial təcrid öyrənmə üçün əngəl deyil

## “Azercell” jurnalistlər üçün onlayn formatda davam etdirdiyi ingilis dili kurslarının qaliblərini mükafatlandırıb

**Fəaliyyət illəri ərzində KİV nümayəndələrinin inkişafına, onların peşəkar bacarıqlarının artırılmasına və beynəlxalq əlaqələrinin qurulmasına, həmçinin rəqəmsal ingilisdilli mənbələrdən sərbəst istifadəsinə yardımçı olmaq məqsədilə çoxsaylı layihələr həyata keçirən ölkənin lider mobil operatoru “Azercell Telekom”un jurnalistlər üçün təşkil etdiyi ingilis dili kurslarının növbəti raundu sona çatdı.**





“Language Solutions” Tədris Mərkəzinin peşəkar müəllimləri tərəfindən ötən ilin əvvəlində ənənəvi formatda başlayan kurslar COVID-19 pandemiyasının səbəb olduğu karantin dövründə müvəffəqiyyətlə onlayn formatda davam etdirildi.

Çap və elektron nəşrlər, eləcə də tele-radio kimi kütləvi informasiya vasitələrində çalışan aktiv peşəkarlar üçün nəzərdə tutulmuş kurslar zamanı mətbuat nümayəndələrinə qrammatika, danışıq, dinləmə və yazı qabiliyyəti üzrə ingilis dili biliklərini gücləndirmək imkanı yaradılıb.

Həmçinin onlayn formatda keçirilən mükafatlandırma mərasimində kurslarda ən çox fəallıq göstərmiş üç jurnalistə şirkət tərəfindən öncədən göndərilmiş rəqəmsal hədiyyələr təqdim olunub.

“Azercell Telekom”un prezidenti Vahid Mürsəliyev media nümayəndələrini təbrik edərək operativ məlumatların hazırlanmasında müxtəlif dillərdə olan resurslardan istifadənin və beynəlxalq səviyyədə KİV arasında mübadilənin vacibliyini vurğulayıb.

Qeyd edək ki, “Azercell” 11 ildən artıq bir müddət ərzində jurnalistlər üçün dil kursları təşkil edir. İndiyədək yüzlərlə KİV nümayəndəsi ingilis dili üzrə ixtisaslaşmış kurslarda iştirak edib. Bundan əlavə, media sahəsində baş verən yenilik və trendlərlə yerli jurnalistləri tanış etmək, fərqli təcrübələrlə bölüşmək, beynəlxalq jurnalistika məktəbi ilə tanışlıq və təcrübə mübadiləsi məqsədilə şirkət tərəfindən mütəmadi olaraq xaricdən dəvət olunmuş tanınmış təlimçilərin maraqlı mövzularda seminar və təlimləri təşkil olunur. “Azercell” ölkədə media nümayəndələri üçün artıq 7 000-dən çox jurnalistin istifadə etdiyi “Mediacell” tarifini hazırlayıb. Mobil operator Vətən müharibəsi zamanı cəbhə xəttinə ezam olunmuş söz meydanının sarsılmaz döyüşçülərini 100 AZN həcmində danışıq və mobil internet balansı ilə də təmin etdi. “Azercell”in ölkə mətbuatının inkişafına və dəstəklənməsinə yönəlik layihələri gələcəkdə də davam edəcək.

# Peyvəndlənmə insanın ömrünü uzadır

## Azərbaycan koronavirusa qarşı vaksinasiya prosesində də ön sıralardadır

**Bir ildən artıqdır ki, dünya qlobal problemlə üz-üzədir. Tibbə məlum olmayan, insan həyatı üçün təhlükə mənbəyi hesab edilən, nəinki epidemiya, hətta, pandemiyaya çevrilərək qitələri bürüyən koronavirusa qarşı mübarizə davam etməkdədir.**







Təəssüf ki, ötən ilin son aylarında Avropanı bürüyən ikinci dalğa bu günlərdə ölkəmizdə də tüğyan etməkdədir. Son günlər yoluxmalardakı artan rəqəmə biganə yanaşmaq olmaz. İkirəqəmli yoluxma birdənbirə 1000 nəfərə çatır. Demək, haradasa, insanlar məsələyə biganə yanaşır, arxayınçılıq göstərir, tətbiq edilən qayda-qanunlara əməl olunmur. Yəni kütləvilik olan yerlərdə ara məsafəsi saxlanmır, tibbi maskalardan istifadə edilmir, marşrut avtobuslarda sıxlığa fikir verilmir, ictimai nəzarət və qınaq olmur, gündəlik gigiyenik qaydalara məhəl qoyulmur və s.

2019-cu ilin son ayından başlayaraq Çindən “ayaq tutub yeriyən” koronavirus qısa müddət ərzində dünya xalqlarını bir “çətir altına” aldı. Buna görə hər kəs öz doğmalarından belə kənar dayanmaqla yalnız özünü deyil, həm də bəşəriyyəti bu zalım xəstəliyin çənginə düşməməsinə çalışdı. Dünya Səhiyyə Təşkilatının, eləcə də ayrı-ayrı dövlətlərin səhiyyə sisteminin birgə mübarizəsi nəticəsində COVID-19-dan əsaslı şəkildə qorunmaq üçün vaksinlərin istehsalı və istehlakı xəbəri də yayıldı. Bu şansı əldən buraxmayan inkişaf etmiş Avropa ölkələrinin bir çoxu, hətta özlərinə lazım olduğundan da artıq vaksin almağa səy göstərdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Xocalı soyqırımının 29-cu ildönümü günü yerli və xarici media mənsubları üçün videoformatda keçirdiyi mətbuat konfransında bu məsələni diqqətdən kənarda qoymadı: “...Pandemiyanın lap əvvəlindən biz vəziyyəti nəzarətdə saxlayırıq. Karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması üzrə görülmüş tədbirlər kifayət qədər səmərəli olub. Biz həm də Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkəyik... Bəzi ölkələr onlara lazım olandan 3-4 dəfə çox vaksin alıblar. Misal üçün, Kanada. Mən bu barədə demişəm. Belə çıxır ki, kiməsə çatmayacaq. Amma bu, onlara maraqlı deyil. Onlar sözdə bərabərlik, insan haqları, demokratiya tərəfdarları kimi çıxış edir, praktikada isə milyonlarla insanın, yoxsul ölkələrdə yaşayan və buna imkanı olmayan insanların hüquqlarını tapdalayırlar. Hətta bu insanların imkanları olsa belə, sadəcə, onlar üçün əlçatan deyil. Sizə açıq deməliyəm, əgər biz bütün istehsalçılarla saziş bağlamasaydıq, - bunu etmişik, - bu gün biz də vaksinsiz qalardıq... Bəs, vəsaiti olmayanlar nə etsinlər? Bu adamlar ölməlidirlər? Deməli, varlılar özlərini peyvəndləyəcək, bütün istehsalı özlərinə götürəcək, necə deyərlər, elementar insan davranışı qaydalarına tam etinasızlıq göstərəcək, yoxsul ölkələr isə əziyyət çəkməli olacaqlar. Biz hansı bərabərlikdən danışırıq? Mən BMT Baş Assambleyasının xüsusi sessiyasında bu məsələni qaldırmışam və bu gün Qoşulmama Hərəkatı çərçivəsində bu məsələ barədə fəal diskussiya aparırıq. Bir çox ölkələr mənim təşəbbüsümü dəstəkləyiblər”.

“COVAX”ın təşəbbüsü üzrə “Pfizer” və “Moderna” peyvəndlərinin də ölkəmizə gətiriləcəyi əhalinin vaksinasiyaya olan tələbatının ödənilməsi deməkdir. Yaxşı ki, çinli tərəfdaşlarımız öz öhdəliklərini yerinə yetirdilər. Kliniki Tibbi Mərkəzin modul tiplu Xəstəxanasının məsul əməkdaşı, həkim-infeksionist Maisə Heybətova söhbət zamanı xatırlatdı ki, ÜST-ün Baş direktoru Tedros Gebreyesus hər şeydən əvvəl müdafiəyə ən çox ehtiyacı olanlara - səhiyyə işçilərinə və yanaşı xəstəlikləri olan insanlara peyvənd təklif etməyə çağırmışdı: “Daha sonra, ÜST-ün hesab etdiyinə görə infeksiya riski yüksək olan əhali qruplarına qayğı göstərmək lazımdır. Eyni zamanda vaksinasiya prosesində əhali koronavirusa qarşı effektivliyi artıq sübut olunmuş qoruyucu tədbirlərə riayət etmək məcburiyyətindədir. Şübhəsiz ki, hər bir insan özü qərar qəbul edir. Lakin insanlar onu da bilməlidirlər ki, ÜST-də vaksinlərin təhlükəsizliyinə cavabdeh olan sistem yaradılıb. Hər hansı mümkün yan təsirlər diqqətlə araşdırılır. Vaksinlərin təhlükəsizliyi peyvəndlənmədən könüllü keçmiş və ya keçən böyük sınaqların əsas amillərindən biridir”.




Həkimin bildirdiyinə görə, peyvəndlənmənin müsbət nəticələrinin özünü göstərməsinə gəlincə, bunun vaxt və zamana ehtiyacı var. Ona görə də vaksinlərin risklərindən daha çox onun faydalı olmasına diqqət yetirmək lazımdır. “CoronaVac” peyvəndinə gəldikdə isə bu vaksinin 4 milyon dozasının alınması barədə də müqavilə bağlanıb. Bəzən gündə 15-20 min nəfər vaksinlənir. Yəni, bu istiqamətdə bütün imkanlardan istifadə ediləcək. Bunun üçün müvafiq maliyyə vəsaitləri ayrılıb. Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, Azərbaycanın beynəlxalq səviyyədə, o cümlədən Qoşulmama Hərəkatının sədri olaraq təşəbbüsü ilə ötən ilin dekabr ayında BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyası keçirilib. 150-dən çox ölkə bu təşəbbüsü dəstəkləyib.

Bu ilin yanvar ayından etibarən ölkəmizdə Çinin istehsal etdiyi “CoronaVac” peyvəndi ilə vaksinasiya aparılır. Onu da qeyd edək ki, Azərbaycan eyni zamanda “COVAX” layihəsinə qoşulub. Bu layihə üzrə “AstraZeneca”, “Pfizer” və “Moderna” peyvəndlərini də alacaq. “AstraZeneca”nın göndərilməsi barədə Rusiya ilə müvafiq müqavilələr bağlanıb. Çünki Rusiya şirkətləri postsovet məkanında həmçinin “Sputnik” vaksininin distribüterləridir.

Unutmaq olmaz ki, dövlət öz vətəndaşlarının sağlamlığının qayğısına qaldığı halda, bəzən hələ də əhalinin laqeydliyinin şahidi oluruq. Nazirlər Kabineti yanında Operativ Qərargahın, həmçinin TƏBİB-in tövsiyə və qaydalarına əməl etməyi unudan məsuliyyətsiz insanların günahı üzündən son günlər yoluxmaların sayının artması heç də yaxşı hal deyil. Görünür, tətbiq olunan qayda-qanunların, eləcə də qadağaların yumşaldılması insanlarda məsuliyyət hissini yenidən azaldır. Bu isə koronavirusun daha geniş yayılması üçün münbit şərait deməkdir. Axı, biz bu məsələdə də mübarizənin ön sıralarında getməyi bacarmışıq. Nədir bizə məsafə saxlamağı unutduran? Maskalardan istifadə, adicə gigiyenik qaydalara əməl etmək gündəlik həyat tərzimizə daxil olub axı. Unutmayaq: “Biz birikdə güclüyük!”.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin “DOST İş Mərkəzi” MMC-nin “nəqliyyat vasitələrinin cari təmir xərcləri”nin kotirovka üsulu ilə satın alınması üzrə 17 mart 2021-ci il tarixli yekun protokoluna əsasən, **“Şərqmotors” MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla 17 mart 2021-ci il tarixdə müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Sumqayıt Kimya Sənaye Parkı” MMC tərəfindən Mingəçevir Sənaye Parkının 11.2 hektar ərazisinin şəhərsalma əsaslandırılması layihəsinin və daxili mühəndis-kommunikasiya təminatı sistemi layihəsi üzrə layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.Təkliflər sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən, **“Azin Construction” MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Laçın Suvarma Sistemləri İdarəsi tərəfindən 16 fevral 2021-ci il tarixdə cari təmir işləri üçün mal-materialların satın alınması məqsədi ilə keçirilən açıq tender prosedurunda **“CİTY CONSTRUCTİON” Məhdud Məsuliyyətli Cəmiyyəti** qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Ağcabədi Meliorasiya İdarəsi tərəfindən 16 fevral 2021-ci il tarixdə cari təmir işləri üçün mal-materialların satın alınması məqsədi ilə keçirilən açıq tender prosedurunda **“CİTY CONSTRUCTİON” Məhdud Məsuliyyətli Cəmiyyəti** qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

ƏƏSMN-in tabeliyində Sosial Xidmətlər Agentliyinin Aparatı üçün ofis sahəsinin və anbarın icarəsi xidmətlərinin satın alınması ilə əlaqədar ƏƏSMN-in tabeliyində Sosial Xidmətlər Agentliyi Publik Hüquqi Şəxsi ilə **“Çinar Park” QSC** arasında 16 mart 2021-ci il tarixdə müqavilə imzalanmışdır.

***Tender komissiyası***


Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi

*açıq tender elan edir*

Katriclərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Müsabiqəyə daxil olduqdan sonra “ASAN ödəniş”lə “ödə “ düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar. (Əlaqələndirici şəxs: Əvəz Məmmədzadə, Tel: (012) 590-81-60).

İştirak haqqı: 300 (üç yüz) AZN

Təşkilat: Baş Dövlət Yol Polisi İdarəsi
VÖEN: 9900063851
H/h: AZ45CTRE00000000000002078506
Dövlət Xəzinədarlıq Agentliyi
VÖEN: 1401555071
Kod: 210005
M/h: AZ41NABZ01360100000000003944
SWİFT BIK: CTREAZ22

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri 15.04.2021-ci il saat 10:00-dək, tender təklifi ilə bank zəmanəti sənədlərini isə 25.04.2021-ci il saat 10:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 26.04.2021-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Laçın Suvarma Sistemləri İdarəsi 2021-ci il üçün
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu. Müqavilənin tələb olunan yerinə yetirmək müddəti 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: Zeynal Nəsibov

Ünvan: Ağcabədi rayonu, Taxta-körpü qəsəbəsi
email: tebiet.ismailov@mail.ru
Telefon: 050-372-29-49, iş: 02127-7-82-12

**Tender 2 (iki) LOT üzrə keçiriləcəkdir.**
**LOT-3: Mexanizmlərlə lildən təmizləmə işləri.**
**LOT-4: Əsaslı təmir işləri.**

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT-3 üzrə 50 (əlli) və LOT-4 üzrə 50 (əlli) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**Təşkilat: Laçın Suvarma Sistemləri İdarəsi**
**Hüquqi ünvan: Ağcabədi rayonu, Taxta-körpü qəsəbəsi**
**VÖEN: 3400081411**
**H/H: AZ74CTRE00000000000002355404**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BIK: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*4.4. İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1-ci və 4-cü bəndlərdə qeyd olunan sənədləri **13.04.2021-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **21.04.2021-ci il saat 18:00-a** qədər elektron qaydada Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **22.04.2021-ci il saat 15:00-da** elektron qaydada Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC təsərrüfat mallarının satın alınması üzrə
### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **"Bakı Metropoliteni" QSC üçün təsərrüfat mallarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adıçəkilən tender bölməsindən əldə edə bilərlər (Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon:490-01-01)

**İştirak haqqı - 300 manat**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*2. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 % -i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmişin öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **14 aprel 2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **22 aprel 2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **23 aprel 2021-ci il saat 14:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi Abşeron DOST və 4 saylı Bakı DOST mərkəzləri üçün bayraqların
### *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 01 aprel 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisə təqdim olunmalıdır (Telefon: (012) 525-50-26).

Zərflər 02 aprel 2021-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları Bakı DOST Agentliyinin AZ1073. Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## "Qala Sığorta"
## Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının nəzərinə

20 aprel 2021-ci il saat 12:00-da Bakı şəhəri, Bakıxanov küçəsi, 6 ünvanında "Qala Sığorta" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Ümumi Yığıncağının iclası çağırılır.

*İclasın gündəliyi:*
- Cəmiyyətin nizamnamə kapitalının artırılması;
- Nizamnamə kapitalı ilə bağlı digər məsələlər;
- Digər cari məsələlər.

***Rəhbərlik***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzinin inzibati binasında quraşdırılmış 1 ədəd "AUXE" markalı sərnişin liftinə göstəriləcək illik periodik texniki servis xidmətinin
### *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 01 aprel 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım, 30B ünvanında yerləşən ofisə təqdim olunmalıdır (Telefon: (012) 525-50-26: daxili: 9234).

Zərflər 02 aprel 2021-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 2 saylı Bakı DOST Mərkəzinin AZ1044. Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım 30B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC 02 aprel 2021-ci il saat 11:00-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC-nin zərərli iş şəraitində çalışan işçiləri üçün südün tədarükü və təchizatının satın alınması üzrə açıq tenderin vaxtı 21 aprel 2021-ci il saat 11:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 12 aprel 2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə 20 aprel 2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən "Bir mənbədən satınalma" metodu tətbiq edilməklə Ağdam rayonu, Mərzili kəndi ərazisində yerləşən "Beynəlxalq Sülhməramlıların Monitorinq Mərkəzi"nin elektrik təchizatı işlərinin satın alınması üçün ümumi dəyəri ƏDV daxil 1 313 345,50 (bir milyon üç yüz on üç min üç yüz qırx beş manat 50 qəpik) manat məbləğində və Tərtər rayonu, Suqovuşan yaşayış məntəqəsinin elektrik təchizatı işlərinin ümumi dəyəri ƏDV daxil 4 567 779,48 (dörd milyon beş yüz altmış yeddi min yeddi yüz yetmiş doqquz manat 48 qəpik) manat məbləğində "EVEREST TİKİNTİ" MMC ilə müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## Ağcabədi Meliorasiya İdarəsi 2021-ci il üçün
### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu. Müqaviləni tələb olunan yerinə yetirmək müddəti 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: Zeynal Nəsibov

Ünvan: Ağcabədi şəhəri, İsmət Qayıbov, 41, e-mail: baxiwov71@mail.ru
Tel: 050-382-17-20, iş: 02127 -5 -53- 67

**Tender 2 (iki) LOT üzrə keçiriləcəkdir.**
**LOT-3:** Kanalların lil və çöküntüdən təmizlənməsi.
**LOT-4:** Əsaslı təmir işləri.

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba LOT-3 üzrə 50 (əlli) və LOT-4 üzrə 50 (əlli) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Bank rekvizitləri :**
**H/h: AZ31CTRE00000000000002355402**
**VÖEN: 3400098091**
**Bank: DÖVLƏT XƏZİNƏDARLIQ AGENTLİYİ**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41 NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
*4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
*4.4. İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1-ci və 4-cü bəndlərdə qeyd olunan sənədləri **13.04.2021-ci il saat 15:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **21.04.2021-ci il saat 18:00-a** qədər elektron qaydada Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **22.04.2021-ci il saat 15:00-da** elektron qaydada Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən maye halında helium qazı və dolum xidmətlərinin satın alınması üçün 22 fevral 2021-ci ildə elan edilmiş açıq tender ilə bağlı malgöndərənin sorğusu əsasında "Dövlət satınalmaları haqqında" AR Qanununun 30.2-ci maddəsinə əsasən, ilkin sənədlərin qəbulu tarixi 18 mart 2021-ci il saat 14:38-dək, tender təklifləri və təkliflərin təminatı sənədlərinin qəbulu isə 02 aprel 2021-ci il saat 17:00-dək uzadılır. Tender üzrə təklif zərflərinin açılışı 05 aprel 2021-ci il saat 14:38-də keçiriləcəkdir. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST Mərkəzinin inzibati binasında quraşdırılmış 2 ədəd "KONE" markalı sərnişin liftlərinə göstəriləcək illik periodik texniki servis xidmətinin
### *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 01 aprel 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 183B ünvanında yerləşən ofisə təqdim olunmalıdır (Telefon: (012) 525-50-26: daxili 9234).

Zərflər 02 aprel 2021-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 3 saylı Bakı DOST Mərkəzinin AZ1073. Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 183B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi "Respublika" qəzetinin baş redaktoru, professor

**TEYMUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə qızı

**HUMAY QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə "Respublika" qəzetinin baş redaktoru, qocaman jurnalist

**TEYMUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Elmira Süleymanova "Respublika" qəzetinin baş redaktoru, professor

**TEYMUR ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə qızı

**HUMAY QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lazım Quliyev Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevə qızı

**HUMAY QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5249
Sifariş 507
Qiyməti 40 qəpik